GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY

# Güney Azərbycan Qurtuluş Partiyası (Qurtuluş)-un 21-Azər Hərəkatının 62-ci il dönümü ilə bağlı rəsmi bildirişi

**Ulu Millətimizin adıyla!**

1906-1911 baş verən Məşrutə Hərəkatı modern anlamda Azərbaycan türklərinin millətləşmə sürəcinin başlanqıç nögtəsidir. Bu sürəc Xiyabani Hərəkatı və 1918-1920 Azərbaycanın quzeyində yaranan Azərbaycan Demokratik Cümhuriyyətilə dəvam etmişdir.
Birinci dünya savaşından sonrakı dünya xəritəsinin yenidən çizilməsi, petrolun siyasi önəm alması, Bolşevizmin bir dünya gücü olması, Anadoluda Atatürk öndərliyində Qurtuluş Savaşının başarısı ilə sonuclanması, başqa yandan isə Türk Qacar Məmalik-e Məhrusə sisteminin fars mərkəzçi bir hükumətə çevrilmə iradəsi uluslararası böyük güçlərin gündəmində dayanmışdır. Avrupa da eytim almış Fars siyasətçiləri də əlverişli kadrolar olarak bu poryektin əsas fiqorları kimi rol almaqdaydılar. Yaradılan yeni sistemdə fars dilinin dövlət mərkəzində yer alması ilə yanaşı yeni rejimin imperiya güclərin çıxarları dayrəsində yer alması da əsas dəyərlər kimi qabul edilmişdir. Qurulan bu dövlət – Pəhləvi-Fars rejimi – yalnız buna görə pılanlaşmişdir. Bu sürəc Azərbaycan üçün gərçək bir fəlakətə çevrilmişdir. Çünki, həmin sürəcin doğal sonucu olaraq Azərbaycan türklərinin də millətləşmə sürəci durdurulmuş, onun tam ziddi olaraq formalaşmaqda olan yeni millətüstü – Fars kültürlü və dilli qondarma İran milləti adlı – şovinist politika aşırılmışdır.
Bu sürəcin davamı olaraq hər şey Farslaşdırılmaqda və yalnız fars etnik kimliyi ətrafında mərkəzlənməyə başlamışdır. Yenicə yaranmış İran adlı Fars rejimi Türk ünsurunu silmək və inkar etməyə qalxmışdır.
İkinci Dünya Savaşı ərəfəsində ortaya gələn yeni dünya formalaşması, Azərbaycan Türk Millətinin yenidən dirçəlməsi və yarımçılıq qalmış millətləşmə sürəcinin dəvamı üçün bir fürsət yaratmışdır.
Azərbaycan Demokrat Firqəinin rəhbərliyi ilə başlayan 21 Azər Hərəkatı, Azərbaycan Türk Millətinin Ulus – Dövlət olmaq yolunda iradəsinin ortaya qoyulmasıdır. Başqa anlamda, Azərbaycan Milli Hükuməti, bir millətin öz təqdirini və gələcəyini öz əlilə oluşdurmağın aydın örnəyidir. 21 Azər Hərəkatı,Azərbaycan Türk Milləti üçün bir

referans nüqtəsi oluşdurmuşdur. Bu, milli dövlətin bir illik qıssa ömrü, Azərbaycan Türklüyünün nələrə qadır olduğunun bariz göstərcəsidir.
Bu bir il bağımsızlıq devrində əldə edilən rifah, dincilik, düzən və özgürlük güneyin uzun tarixinin ən parlaq səhifəsidir. Həmin ildə Azərbaycanın Güneyində gərçəklənən siyasi, ekonomi, şəhərcilik, incəsənət və azərbaycan türkcə dili, kültürü vb. işlər yalnız bir milli hakimiyyətin görəcəyinin başqa örnəyidir. Ayrıca hüquq alanında yaranmaqda olan düzənləmələr və hakimiyyətlə millət arasında olan doğma ilişgilərin izlənimləri, 1945-də oluşan Milli Hakimiyyətimizin milli mahiyyətinin eyniliyidir.
Azerbaycan Milli Hükumətinin qurulması və o günkü dünya şərtlərindən qaynaqlanan olumusluq, başqa yandan isə Hərəkat liderliyində var olan dərin milli düşüncə axsaqlığı bir illik ğzgürlüyün acı sonucunun nədənləri olmuşdur. Buna baxmayaraq 21-Azər Hərəkatı, Azərbaycan Türk Milləti üçün heç bir zaman əbədi bir yenilgi və məğlubiyət yox, tərsinə tarixində qızıl boyayla yazılan bir milli qurtuluş və bağımsızlıq simgəsi və şərəf onuru olmuşdur. Azərbaycan Demokrat Firqəsi (ADF) Səttarxan və Xiyabani Hərəkatlarının mirasçısı olmaqla birlikdə mahiyyətcə ikisindən də böyük fərqlənirdir. 21-Azər Hərəkatı Azərbaycan Türk Millətinin İran mərkəzli sistemdən qopma, bağımsız bir dövlət olma istəyinin, Türk kimliyinə aid olmasının açıq gösrərgəsidir.
21- Azər Hərəkatı həm də, Güneyin bugünkü dərin milli qurtuluş hərəkatı üçün bir refrans nöqtəsi və ilham qaynağı olmaqdadır.
Güney Azərbaycan Qurtuluş Partiyası (Qurtuluş), Güneyimizin ulus-dövlətləşməsinin ən önəmli tarixsəl olayı olan 21- Azər gününü 62.ci il dönümü bayramını bütün millətimizə qutlu olusun diyərək, bu yolun dəvamçisi olmaq şərəfi ilə fəxr edir.
Unudulmaz olsun 21-Azər Hərəkatının milli şəhidləri!
Yaşasın Azərbaycan Milli Hərəkatı!

**Güney Azərbaycan Qurtuluş Partiyası (Qurtuluş)**
**Siyasi Bölmə**
**2007-12-21**